**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ**

**Ə M R**

**№** 3417

**Xırdalan şəhəri** "14" 12 2021 il

2021/2022-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının təşkili və keçirilməsi haqqında

"Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 nömrəli qərarına, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 14 sentyabr 2008-ci il tarixli, 1059 nömrəli əmri ilə təsdiq edilmiş "Kredit sistemi ilə təhsil alan tələbələrin fənlər üzrə imtahanları haqqında əsasnamə"yə uyğun olaraq universitetin bakalavriat və magistratura səviyyələrində 2021/2022-ci tədris ilinin payız semestrinin imtahan sessiyasını təşkil etmək, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı və obyektivliyi təmin etmək məqsədilə

**ə m r e d i r ə m :**

1. Payız semestrinin imtahan sessiyası 03.01.2022 – 01.02.2022-ci il tarixləri arasında, təhsilin bakalavriat səviyyəsində saat 10:00 və 13:00, magistratura səviyyəsində saat 15:00 olmaqla əyani formada keçirilsin.
2. İmtahanların keçirilməsi zamanı "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs tərəfindən hazırlanmış "İmtahanlar zamanı koronavirus infeksiyasının (COVID-19) profilaktikasına dair metodiki göstərişlər"ə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2020-ci il 10 sentyabr tarixli 332 nömrəli qərarı ilə təsdiq edilmiş "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"na riayət olunsun. Universitet üzrə operativ məsul şəxs (B.Hüseynzadə) müvafiq tədbirlərin görülməsinə və icrasına nəzarət etsin.
3. Tələbənin fənn üzrə toplaya biləcəyi maksimum bal 100-ə bərabərdir. Bunun 50 balı semestr ərzindəki fəaliyyətə, digər 50-si isə imtahan nəticələrinə görə toplanır. Balların maksimum miqdarı aşağıdakı kimi müəyyənləşdirilir:
   -Tələbənin sərbəst işi: 10 bal, semestrdaxili fəaliyyət: 30 bal, dərsə davamiyyət: tələbənin dərsdə iştirak faizinə görə 5-10 bal arası, imtahan: 50 bal.
4. *Fakültə dekanlarına və kafedra müdirlərinə tapşırılsın:*
   a. Tələbələrin fənlər üzrə imtahanqabağı ballarının "Elektron Məlumat Sistemi" vasitəsilə avtomatik hesablanması məqsədlə imtahana qədər əldə olunmuş bütün qiymətləndirmə

məlumatlarının (dərsə davamiyyət, semestr daxili fəaliyyətlər, sərbəst iş, laboratoriya işi və kurs işi nəticələri) fənn müəllimləri tərəfindən sessiya başlayanadək sistemə tam daxil edilməsinin təşkil olunması;

b. İmtahan sessiyası başlayana qədər tələbələrin kurs layihələrinin (işlərinin) müdafiəsi kafedralarda komissiya qarşısında aparılması və mövcud qaydada sənədləşdirilməsi;

c. Fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbələrin (səbəbindən asılı olmayaraq) həmin fənnin imtahanına buraxılmaması;

d. Akademik qrupların təklifləri nəzərə alınaraq imtahanların keçirilməsi cədvəlini sessiyanın başlamasına ən azı 15 gün qalmış, hər yazılı imtahana 120 dəqiqə, test imtahanına 90 dəqiqə vaxt ayırmaqla tərtib edilib təsdiq üçün tədris işləri üzrə prorektora təqdim edilməsi;

e. imtahanların keçirilməsi cədvəllərində zəruri dəyişikliklərə ehtiyac olduqda onun yalnız tədris işləri üzrə prorektorun razılığı ilə həyata keçirilməsi;

f. Hər bir imtahana hazırlaşmaq üçün tələbələrə 2 gündən az olmayaraq vaxt ayrılması;

g. Semestr üçün hesablanmış təhsil haqqını ödəməyən tələbələrin imtahan sessiyasına buraxılmaması və bu barədə əvvəlcədən tələbələrin məlumatlandırılması;

h. İmtahanların müvafiq kafedralar tərəfindən tədris olunan fənnin məzmununu tam əhatə edən, sessiyanın başlanmasına bir ay qalanadək tələbələrə elan edilmiş mövzular və altmövzulara uyğun olaraq tərtib edilən suallar əsasında təşkil olunması;

i. İmtahan sualları 17 dekabr tarixinə qədər kafedrada təsdiq edilməsi;

j. İmtahanlara üzürlü səbəbdən gəlməyən tələbələr 3 gün müddətində dekanlığa onun səbəbi haqqında rəsmi sənəd təqdim etməlidirlər. Üzürlü səbəbdən sessiya müddətində imtahanlarda iştirak etməyən tələbələrə növbəti semestr başlayana qədər imtahan vermək üçün şəraitin yaradılması və bu barədə tələbələrin qabaqcadan məlumatlandırılması;

k. Üzürlü səbəbdən imtahanlara gələ bilməyən müəllimlərin əvəz edilməsi kafedra müdirləri və fakültə dekanlarının birgə təqdimatına əsasən tədris işləri üzrə prorektorun icazəsi ilə həyata keçirilməsi;

l. Sessiya zamanı baş verən hər bir neqativ hal üçün fakültə dekanları və kafedra müdirləri birbaşa məsuliyyət daşıyır. İmtahanlarda tələbələrin biliyinin qiymətləndirilməsində qeyri-obyektivliyə yol verilməsinin qarşısının alınması üçün müvafiq tədbirlərin görülməsi;

m. İmtahanların gedişində və yazı işlərinin yoxlanılmasında səlahiyyətlərindən sui-istifadə etmə hallarına yol vermiş fənn müəllimlərinin və nəzarətçilərin imtahanlardan kənarlaşdırılması və onlar barəsində ciddi tədbir görülməsi üçün rektorluğa təqdimatın yazılması;

n. Sessiyanın nəticələrinə görə ayrı-ayrı fənlər üzrə ən aşağı göstəricilərin kafedra və fakültənin Elmi Şuralarında müzakirə olunması və həmin fənləri tədris edən müəllimlərə növbəti tədris ilində dərs yükü ayrılan zaman imtahan nəticələrinin nəzərə alınması;

o. Tələbələrin imtahanlara yalnız tələbə bileti ilə buraxılması;

p. İmtahanların keçirilməsi, imtahanın nəticəsi ilə bağlı münaqişə komissiyasına müraciət qaydaları (qiymət elan edildikdən sonra 1 iş günü ərzində müraciət edilə bilər) ilə

tələbələrin ətraflı məlumatlandırılması. Bu məqsədlə hər bir dekanlığın və kafedraların elanlar lövhələrində imtahan və münaqişə qaydalarının elan edilməsi;

q. Tələbə ona verilən qiymətdən razı olmadığı halda həmin gün apellyasiya komissiyasının sədrinə əsaslandırılmış ərizə ilə müraciət edə bilər

r. İmtahanların gedişinin ardıcıl surətdə yoxlanılması, nəticələrin kafedra iclaslarında və fakültə Elmi Şuralarında müzakirə edilməsi;

s. Tələbələrə vaxtından əvvəl imtahanların yalnız əsaslandırılmış səbəb olduqda tədris işləri üzrə prorektorun razılığı əsasında təşkil olunması;

t. İmtahan nəzarətçilərinin tərkibi barədə əmr hazırlanması üçün 17 dekabr tarixinədək nəzartçilərin siyahısının təqdim edilməsi;

u. İmtahan cədvəlləri üzrə kafedralarda müvafiq imtahanqabağı məsləhət saatlarının keçirilməsi qrafikinin tələbələrə çatdırılması;

v. Akademik borcu qalan və üzrlü səbəbdən imtahanda iştirak etməyən tələbələr üçün müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq təkrar imtahanların təşkil edilməsi;

w. İmtahan nəticələrinin imtahanın keçirildiyi gün (müstəsna hallarda növbəti iş günü) fənn müəllimi tərəfindən universitetin Elektron Məlumat Sisteminə daxil edilməsinin təşkil olunması;

x. İmtahan qaydalarını pozan tələbələrə qarşı universitetin "Tələbələr üçün intizam haqqında Əsasnamə"sinə müvafiq tədbirlərin görülməsi üçün təqdimatın yazılması;

**5.** Universitetin Tədris hissəsi imtahan sessiyasının mövcud əsasnamələrə uyğun keçirilməsinə, sessiyanın gedişini və nəticələrini əks etdirən bütün statistik forma və hesabatların vaxtında tərtib olunmasına ciddi nəzarət etsin.

**6.** Sessiyanın gedişinə operativ nəzarət etmək, imtahanlarda yarana biləcək şikayətlərin həll edilməsini təmin etmək məqsədilə "Qərargah" və "Münaqişə (apellyasiya) komissiyası" yaradılsın. "Münaqişə (apellyasiya) komissiyası"nın və "Qərargah"ın sədrləri və tərkibləri haqqında təkliflərin verilməsi tədris işləri üzrə prorektor, professor H.Orucova tapşırılsın.

**7.** Auditoriyalarda imtahanların aparılması üçün lazımi şəraitin yaradılması universitetin Maliyyə-təsərrüfat işləri üzrə prorektoru E.Zeynalova tapşırılsın.

**8.** İmtahan zamanı kənar şəxslərin (əvvəldən razılaşdırılmaqla İctimaiyyət nümayəndələri və tələbələrin valideynləri istisna olmaqla) tədris binalarına daxil olmalarının qarşısının alınması məqsədilə ciddi nəzarət sisteminin yaradılması universitetin mühafizə xidmətinə tapşırılsın.

**9.** Universitetin tələbə həmkarlar və tələbə gənclər təşkilatlarının sədrlərinə sessiya müddətində nizam-intizamın təmin edilməsi və imtahanların gedişi barədə rektorluğa və fakültə dekanlıqlarına müntəzəm məlumatların verilməsi tapşırılısın.

**10.** Sessiya müddətində kitabxananın saat 08:45-dən 18:00-dək fəaliyyət göstərməsini kitabxananın müdiri A.Həmzəyeva təmin etsin və fakültə dekanları ilə birlikdə tələbələrin dərsliklər və dərs vəsaitləri ilə təmin olunmasına lazımı şərait yaratsın.

**11.** Bu əmr fakültə Elmi Şuralarında, kafedra iclaslarında professor-müəllim heyətinin (imza edilməklə) nəzərinə çatdırılsın və fakültənin elanlar lövhəsindən asılsın.

12. Ümumi şöbənin müdiri T.Quliyeva bu əmrin surətini universitetin aidiyyəti struktur bölmələrinə çatdırsın.

13. İctimaiyyətlə əlaqələr şöbəsinə (E.Babayev) bu əmrin surətinin universitetin saytında yerləşdirilməsi tapşırılsın.

14. Əmrin icrasına nəzarət Tədris işləri üzrə prorektor, professor Həmzağa Orucova tapşırılsın.

Əsas : Azərbaycan Respublikası Təhsil Nazirliyinin 10.12.2021-ci il tarixli, F-570 nömrəli əmri

**Rektor, professor** **H.Ə.Məmmədov**